Aqrar Xidmətlər Agentliyi

# TİKANLI QUŞÜZÜMÜ

## (Solanum rostratum Dunal.)



088-588

axa.gov.az

## Zərərli orqanizm haqqında

Hündürlüyü 30 -100 sm olan olmaqla tikanla sıx örtülmüş bitkidir. Şaxələnmiş mil kökü 3 m-dək dərinliyə gedir. Gövdəsi silindirik, oduncaqlı, çox budaqlı, bozumtul rənglidir. Yarpaqları növbəli, uzun saplaqlı, dərin ikili lələkvari bölünmüş, uzunluğu 5-10 sm-dir. Çiçəkləri beş hissəli, salxımdadır. Bitki iyun-sentyabrda çiçəkləyir, avqust-oktyabrda meyvə verir. Yetişdikdə meyvə çatlayır. Bir bitkidə 2000-ə dək toxum olur. Quşüzümünün təzə yığılmış toxumları cücərmir, onlar 5-6 ay ərzində bioloji dinclik vəziyyətində olur, ancaq torpaqda qışladıqdan sonra cücərir.

## Mübarizə tədbirləri

- Tikanlı quşüzümü toxumları ilə zibillənmiş əkin materiallarının əkilməsi qadağan edilməlidir;
- Toxum materialı təmizlənməli, sahəyə yalnız yanmış peyin verilməlidir;
- Bu alaq otu ilə güclü zibillənmiş sahə dincə qoyulmalı, sonra isə həmin sahədə 2 il payızlıq taxıl əkilməlidir. Taxıl yığıldıqdan sonra bitki qalıqları məhv edilməlidir.

**Təsiredici maddəsi** Dimetil amin duzu (1,6-2,0 l/ha), Tribenuron (10-15qr/ha), 2,4 D amin (1,6-2,0 l/ha) olan preparatlar ilə kimyəvi mübarizə aparıla bilər. Tikanlı quşüzümü inkişafının ilk mərhələlərində 2,4 D qrup herbisidlərə daha həssasdır.n 240 q/l --- 0.4 l/ha



**Tikanlı quşüzümü**